# AKADEMİK İSA HƏBİBBƏYLİNİN ELMİ-ƏDƏBİ İRSİ

## *filologiya elmləri doktoru Gülxani Pənahın «Fundamental elmi baxış və konseptual yanaşma»sında*



*Əli Rza XƏLƏFLİ*

**I yazı**

Həyatın əzəlindən bu gününəcən və bu günündən sonunacan nəbzi mübarizələrdə döyünür. Elə buna görə də hər hansı bir qətiyyətli mövqe ilə mübarizələrin sona çatacağını, tərəflərdən hansınınsa birdəfəlik qalib gələcəyini düşünmək sadəlövhlük olardı. Bəlkə də elə həyatın davamlılığını bu mübarizələrin bitməzliyi təmin edir.

İndiki açıq fikir və demək, açıq mübarizə müstəvisində hər cür fikir sahibinin savaşda olduğunu görmək o qədər də ürək açan deyil. Ən azı ona görə ki, müəyyən elmi mübahisələr üçün xüsusi hazırlığı olan adamların söz sahibi olması məntiqli olardı. Təəssüf ki, belə deyil.

Dövrün yaratdığı şəraitdən istifadə edən, hətta mətbuatdan istifadə etməyin əlçatan olmadığı məqamlarda sosial şəbəkələr, indiki texniki imkanlar sözü çürüdənlərin tribunasına çevrilib. Azərbaycanın ən görkəmli elm və mədəniyyət xadimləri haqqında şayiələr, əsası olmayan hökmlər, tənqiddən çox qərəzə söykənən şərlər, böhtanlar baş alıb gedir. Nizamidən bəri kimi axtarsan nihilistlərin, gözünü qarov basmış məxluqların tənqid obyektidir.

S.Vurğuna ardıcıl hücumlar xalqın, mənən sağlam insanların müqavimətinə rast gəlsə də, səngimir. İndi də Nizami Cəfərov haqqında sözündən ucundan tutub ucuzluğunacan aparanların nəyə nail olacağını əslində, özləri də yaxşı bilir. Yəni dədələrimizin yüksək dəyər verdiyi sözü havaya sovurmaq ancaq təəssüf doğurur. Hətta belə məxluqlardan biri akademik N.Cəfərovu savadsız adlandırır. Bu yerdə hətta acı gülüş də kara gəlmir. Beləsinə nə deyəsən?

Akademiklər Rəfael Hüseynov, Kamal Abdulla, Xalq yazıçısı Çingiz Abdullayev... ən başlıcası, yerindən tərpənənin Anara heç bir mənəvi istinadı olmayan adamların atdığı daşları bir yerə yığsan bəlkə, bir lənət təpəsi yaranardı.

Bu yerdə mənim sağlam ədəbi qüvvələrə bir təklifim var: Gəlin Azərbaycanın görkəmli ziyalılarına, qüdrətli yaradıcı adamlarına yönəlik böhtan daşlarını yığaq və bu daşları atanların adına bir lənət kurqanı yapaq. Və hər daşın üstündə şər, böhtan, föş sahiblərinin adını yazaq.

Elə buradaca İsa Həbibbəylinin də adının həmin mötəbər ünvanlardan kənarda qalmadığını demək istəyirəm. İnsafən akademik İsa Həbibbəyli bütün varlığı ilə ədəbi mübarizələrdə səmimiyyəti ilə ön sırada görünür. Ardıcıl elmi tədqiqat yaradıcılığı, ictimai-siyasi fəaliyyəti ilə dönməzlik nümayiş etdirir. Təbiət etibarı ilə səmimi olan İsa müəllimin ən üstün keyfiyyəti onun qərəzsizliyidir. Hətta onu tənqid edənlərə dözümlü yanaşması, yeri gələndə belələrinə hörmətli münasibət göstərməsinin özü də bir şəxsiyyət örnəyidir.

«İ.Həbibbəyli nə yazır» sualını verənlərə (belə suallar sosial şəbəkədə az deyil və bu sualı verənlərin kimliyinin və səviyyəsinin göstəricisidir) bircə cavabım var: Akademik İ.Həbibbəylinin elmi-ədəbi yaradıcılığını özündə ehtiva edən oncildliyini oxumaq bir tərəfə, təkcə elə vərəqləmək az-çox vicdanı olanların həqiqətə gəlməsinə kömək edərdi.

Mən etiraf edirəm ki, yaxşı hal olmasa da, özümü çox yazanlar sırasında bilirəm. Hərdən məndən soruşurlar ki, belə nə çox yazırsan? Cavabım da budur: Ona görə çox yazıram ki, «Kredo» qəzetin üzü dolsun, çapa gedəndə boş səhifə qalmasın.

Mənim bu sözümdən dədə-baba dili ilə desəm xoyurqulanlara (hövllənənlərə) deyirəm ki, hələ yaxşı yazmaqdan danışmıram, çox yazmaqdan danışıram. Əlbəttə, yaxşını, pisi gələcək ayıracaq. Kimin kimliyi yazdığında görünəcək. Çox yazan müəlliflər sırasında birmənalı, ilk onluqda yer tutanlardan biri də filologiya elmləri doktoru, yazıçı, şair, publisist Gülxani Pənahdır.

Onun son illərdə nəşr olunmuş üç möhtəşəm tədqiqat əsərinin adını çəkirəm: "Mir Cəlalın elmi-nəzəri görüşləri" (Bakı, 2009), «Yaradılış, həyat və idrak fəlsəfəsi - Novruz - yeni gün» (Bakı, 2017), «Fundamental elmi baxış və konseptual yanaşma» (Bakı, 2020), «Milli kökümüzə, dilimizə, ədəbiyyatımıza yeni baxış» (Bakı, 2021). Hər biri 600 səhifə, iri formatda çap olunmuş bu kitabların yazılması üçün bütöv bir ömür də bəs eləməzdi. Əlbəttə, həyatını istirahətlərdə, yaradıcılıq masasından kənarda keçirənlər üçün bu əsərləri yazmaq fantastik görünə bilər. Birinci növbədə bu əsərləri yazmaq üçün yüksək elmi hazırlıq, tədqiq etdiyi sahəni dərindən bilmək, ən başlıcası, yazı istedadı ilə tükənməz zəhməti birləşdirmək əsas şərtdir. Hələ G.Pənahın nəsr yaradıcılığını, publisistikasını, poetik özünüifadə örnəklərini demirəm. Üstəlik, onun ictimai fəaliyyətini - ədəbi müzakirələrdə iştirakını, ayrı-ayrı auditoriyalardakı məruzələrini də onun yaradıcı ömrünün salnaməsinə daxil etsək, bu qadının bir amazon gücündə olduğuna gərək qətiyyən şübhə etməyək.

Mən bir neçə kəlmə «Fundamental elmi baxış və konseptual yanaşma» əsəri haqqında ayrıca danışmaq istərdim. Annotasiyada kitabın elmi mündəricəsi, tədqiqat istiqamətləri dəqiq göstərilib: *"Fundamental elmi baxış və konseptual elmi yanaşma" adlı monoqrafiyada tanınmış ədəbiyyatşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü İsa Həbibbəylinin elmi-ədəbi irsi, ictimai-siyasi fəaliyyəti tədqiqata cəlb olunmuşdur. Kitabda alimin 60-dan çox əsəri, monoqrafik tədqiqatları, ədəbiyyatşünaslığa dəyərli töhfə olan Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyası əsasında ədəbiyyatşünaslığın müxtəlif sahələri üzrə çoxcəhətli fəaliyyətindən bəhs olunur. Həmçinin akademikin müstəqil dövlətçiliyimizin inkişafına misilsiz xidmətləri olan Ümummilli lider Heydər Əliyev haqqındakı əsərləri və Azərbaycançılıq konsepsiyası da monoqrafiyada təhlil edilmişdir".* Buradan göründüyü kimi, İ.Həbibbəylinin təkcə elmi-ədəbi fəaliyyəti yox, müstəqil dövlətçiliyimizin qurulmasında Heydər Əliyev ideyalarının bərqərar olması naminə mübarizələrinin də onun həyatında əsas yer tutduğunu diqqətə çatdıran motiv bizə çox şey deyir. Bəli, akademik İ.Həbibbəyli bu gün ictimai-siyasi fəaliyyətində də tükənməz enerji ilə dövlətçiliyimizin və müstəqillik dayaqlarımızın möhkəmlənməsi naminə öz gücünü əsirgəmir.

Xalq yazıçısı Anar tədqiqata Ön söz yazıb. Başlıqda Ön sözünün məramını dəqiq ifadə edib «Ədəbiyyat təəssübkeşi: İsa Həbibbəyli». Əslində, bu başlıqla Anar sağlam ədəbiyyat uğrunda mübarizədə İ.Həbibbəylinin həm mübarizəsini göstərir, həm də onun mənəvi istinadlarının qaynaqlarına diqqəti yönəldir. Açığı, mən istəyirdim ki, tədqiqat haqqında Anarıq düşüncələrinə daha çox yer verim. Amma onun ilk abzasdakı düşüncələri mənim bu yazımın əvvəlində göstərdiyim məqamlarla səsləşdiyini gördüm və bir xalq müdriki, bütün həyatını insanlığın qalxışına həsr etmiş zəka sahibinin nədən kədərli nötlarla sözə başladığını oxucuların da diqqətinə çatdırmağımı vacib bildim: *«Uzun illər yazılarımda, müsahibələrimdə dediyim bir fikir var: Dostlarımın bir hissəsini ölüm aldı, bir hissəsini həyat. Son illərdə isə. Artıq çox işlətdiyim bu fikrə kiçik və kədərli bir əlavə də etmişəm: Çox yaşamağın çətin tərəfi odur ki, yaxınlarını, dostlarını bir-bir itirirsən. Bəlkə də, axır vaxtlarda bir neçə dostumu, mənə əziz olan insanları itirdiyim üçün belə bədbin fikirlərə qapılıram. Amma bununla belə illərin, zamanın bizə qazandırdığı qiymətli, gerçək sənət, həyat dəyərlərini hər şeydən üstün tutan insanlar da az deyil. Bu mənada alim, akademik İsa Həbibbəylinin yubileyi ərəfəsində təbrik məqaləsi yazmağı özümə borc bildim».* Bundan sonra böyük sənətkar keçmişə də ekskurs edir. Düşüncələrində ədəbiyyatın keçdiyi yolu yazıya gətirir. Zamanın ayrı-ayrı mərhələlərində ümumi ideoloji xəttə uyğun gəlməyən əsərlərin baltalanmasını təəssüflə yada salır. Əlbəttə, bu zaman bizim dövrümüzün 70-80-ci illərin və günümüzəcən davam edən, yaddaşımızda iz buraxmış ədəbi təhlillərin yeni düşüncə tərzinin formalaşmasındakı rolunu qeyd etməsi, zənnimcə, çox qiymətlidir.

Burada elə məqamlar var ki, indiki oxucu auditoriyası üçün çox gərəklidir. Anarın qeydlərini oxumaqla İlahi haqqı, ədalət hissini itirmiş insanların heç olmasa, qərəzli məqamlarında Allahı yada salmalarını arzulayardıq: *«Hələ Sovet dövründə ədəbi tənqidin əsas yolu, istiqaməti mübahisəli olanda bu haqda fikirlərimi müxtəlif yerlərdə demiş, yazmışdım. Yəni o zamanlar bir qayda olaraq, rejimə və onun qaydalarına uyğun gəlməyən əsərlər kökündən "baltalanırdı", ya da xoşbəxt sovet cəmiyyətini tərənnüm edənlər dağ başına qaldırılır, müəlliflər Tolstoy, Şekspir səviyyəsində dahi, əsərlər isə şedevr elan olunurdu. Şübhəsiz, istisnalar vardı, yəni ədəbiyyata gerçək sənət meyarları ilə yanaşan tənqidçilərimiz də az deyildi. Bizim nəsil ədəbiyyata gələndə məhz mətni təhlil edən, şəxsi münasibətlərin fövqündə duran, siyasi səbəblərdən azad olan ədəbi tənqidçilərin arzusunda idik. Yəni təriflənmək yox, sadəcə mətnlərin təhlil olunması, onlara bütöv yanaşılması vacib idi. Misal üçün, Yaşar Qarayevin təhlilləri bizim üçün çox maraqlıydı... Və ölkəmiz müstəqil olanda mən məhz bu yönün, bu istiqamətin inkişaf edəcəyini, ədəbi tənqidin yeni və azad bir mərhələyə keçəcəyini gözləyirdim. Bu mənada 70 yaşı tamam olan dostumuz, akademik İsa Həbibbəylinin xidmətlərini xüsusi vurğulamaq istərdim. Həmçinin bizi istər ictimai həyatda, istərsə də ədəbiyyat müstəvisində yaxınlaşdıran əsas məqamları yada salmağım da bu yubiley yazımda yerinə düşər. Əlbəttə, bütün mövzulardan, hadisələrdən, İsa müəllimin rəhbərlik etdiyi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Azərbaycan Yazıçılar Birliyinin birgə layihələrindən də öncə dahi Mirzə Cəlil Məmmədquluzadəni bizi birləşdirən ən böyük dəyəri qeyd etməliyəm".* Mirzə Cəlil elə fenomendir ki, nə vaxt milli dəyərlər üzərinə hücum başlayıbsa, onda o, bütün gücü ilə ədəbi meydanda görünür; millətin kimliyi kimi görünür, Azərbaycanın özü kimi görünür. Əslində, G.Pənahın "Fundamental elmi baxış və konseptual elmi yanaşma" tədqiqatında da əsas məqsəd odur ki, milli dəyərlərin mahiyyətinə işıq salan tədqiqatçını elmi müstəviyə gətirsin. Özü də təkcə elmi müstəviyə yox, ümumi oxucu auditoriyasına onun mübarizələrinin fonunda təqdim etsin. Əslində, elə Anarın özü də zaman-zaman milli dəyərlərin xalqın özünü qoruma instinkti ilə bağlı olduğunu düşündüyündən Mirzə Cəlil fenomeninə xüsusi əhəmiyyət verir. G.Pənahın tədqiqatında əsas obraz kimi görünən İ.Həbibbəyli haqqındakı tədqiqata münasibətini elə Mirzə Cəlilə münasibəti kimi eyniləşdirir.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Dəyərlər zaman-zaman qismən dəyişə bilər, zənginləşə bilər, amma dəyərlərdən tam imtina oluna bilməz. onda xalq kimliyini itirə bilər. Anar sözünə davam edərək yazır: *"Məsələ burasındadır ki, Mirzə Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında özümə ən doğma, ən yaxın bildiyim yazıçıdır və hələ uşaq yaşlarımdan onu oxuduqca ruhən yaxınlığı hiss edirdim. Sonra bunu "Anlamaq dərdi"ndə də yazdım. Sonralar da Mirzə Cəlil haqqında "Qəm pəncərəsi" filmini çəkməklə, "Sizi deyib gəlmişəm", "Nigarançılıq" pyeslərini yazmaqla bu dahi mütəfəkkiri öz gördüyüm, anladığım şəkildə tamaşaçı və oxuculara çatdırmaq istədim. Amma bütün hallarda, Mirzə Cəlil yaradıcılığının bütöv təd-*dın demisən. Boşboğazlar üçün, sözünü havaya sovuranlar üçün, əlinə qələm götürüb, ya elə kompüterin klavyaturasını qarşısına çəkib barmaqları ilə hərfləri taqqıldatmaq zəhmətinə qatlaşmayanlar üçün tutarlı qamçıdır. Hətta çox görmüşəm, heç oxumadan kitaba baxıb ironiya ilə qımışanlar az deyil. Belələri üçün fərqi yoxdur, Manas olsun, Dədə Qorqud olsun, Yusif Xas Balasaqulnunun «Kutatqu-bilik»i olsun... lap elə Əli Rza Xələflinin «Yaddaş yanğısı», «Xəzanda yaz gülləri», «Aşiqliyin işığında» poemaları olsun, ya da G.Pənahın nadanlara zərbə olan böyük tədqiqatları olsun... fərq etməz. Görünür, fəlsəfənin məşhur qanunu elə bu məqamlar üçündür. Əksikliklərin vəhdəti və mübarizəsi...

G.Pənah Girişdə İ.Həbibbəylini yetirən ədəbi düşüncə sütunlarının üzərində bərqərar olan sarayın memarlarını yada salır: *«Böyük alimlər, böyük müəllimlər həmişə ustad kimi xatırlanırlar. Məmməd Arif, Mir Cəlal, Feyzulla Qasımzadə, Kamal Talıbzadə kimi Məmməd Cəfər Cəfərovun da tələbələri onu həmişə fəxrlə yad ediblər. Yüksək intellektual səviyyə, humanizm və sadəlik alimin həyatını rövnəqləndirər. Ona böyük hörmət gətirər. Həyatında böyük rolu olan Məmməd Cəfər Cəfərov, Mirzağa Quluzadə, Yaşar Qarayev, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Kamran Məmmədov və başqa görkəmli şəxsiyyətlərin əhatəsində olan akademik İsa Həbibbəylinin dünya görüşünün formalaşması üçün real zəminlər vardı və İsa Həbibbəylinin bu gün mükəmməl bir ədəbiyyatşünas kimi yetişməsində onların rolu danılmazdır. Bu bir reallıqdır ki, Məmməd Cəfər Cəfərova məxsus müdriklik, dərinlik və sadəlik, Abbas Zamanovun vətəndaşlıq mövqeyi, Əziz Mirəhmədovun dəqiqliyi və məsuliyyəti İsa Həbibbəylinin elmi fəaliyyətində aydın surətdə özünü göstərir».* Bundan sonra İ.Həbibbəylinin elmi-ədəbi yaradıcılığı, (eləcə də poetik yaradıcılığı) incələnir. Söz bizi öz axarına alır və nəhayət, İ.Həbibbəylinin tədqiqat işığında biz G.Pənahın bələdçiliyi ilə ədəbi dərinliklərə doğru yol alırıq. G.Pənah tədqiqatın girişində İ.Həbibbəylinin bir tədqiqatçı kimi formalaşması yolunda işıq olan tədqiqatçıları təsadüfi yada salmır. Çünki milli düşüncənin, ədəbi irsə elmi baxışın dəyəri orasındadır ki, tədqiqatlar bir-birini təkrar etməsin. biri qurtaran yerdə digəri başlasın. biz İ.Həbibbəylinin tədqiqatlarında G.Pənahın diqqətə çatdırdığı kimi, özündən əvvəlki tədqiqatçıların elmi işlərinin davamı kimi İ.Həbibbəylinin yazdıqlarını görürük. G.Pənah sözünə davam edir: *"Akademik İsa Həbibbəyli "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. İlk elmi işinin yeniliyi, aktuallığı ilə bağlı təhlil və tədqiqatlarda Azərbaycan ədəbiyyatının çox zəngin və maraqlı bir dövrünə həsr edilmiş həmin tədqiqat işinin "elmi sanbalı, nəzəri cəhətdən orijinallığı və yeniliyi ilə görkəmli ədəbiyyatşünaslarımız Məmməd Cəfər Cəfərov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Abbas Zamanov, Yaşar Qarayev və professor Kamran Məmmədovun diqqətini cəlb etdiyi, tədqiqat işinin yüksək qiymətləndirildiyini bildirirlər: "Böyük həvəs və fədakarlıqla XX əsrin əvvəllərinin ədəbi ictimai fikrinə qiymət verən İsa Həbibbəyli dövrün və zamanın tələbi baxımından Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq kimi görkəmli ədəbi simaların yaradıcılığını diqqətlə öyrənmiş, romantik şeirin bədii-estetik maliyyətini, ictimai-fəlsəfi qayəsini və sənətkarlıq xüsusiyyətlərini elmi-nəzəri şəkildə açıb göstərməyə müvəffəq olmuşdur".* Burada G.Pənah akademik İ.Həbibbəylinin biblioqrafiyasına istinadla onun fikirlərini də yaddaşa gətirir.

İ.Həbibbəyli çox istiqamətli tədqiqatçıdır. O, həm klassikləri daim elmi müstəvidə saxlayır, onların yaradıcılığına dərin tədqiqatlar həsr etməklə bərabər, həm də müasirlərindən də nəzərlərini kəsmir. M.Hadinin, H.Cavidin, A.Səhhətin və başqalarının yaradıcılığı İ.Həbibbəylinin ilham qaynağı olub. Biz bu gün adları çəkilən sənətkarların ədəbi-mənəvi irsindən müəyyən səviyyədə faydalana biliriksə, xalqın intellektinin yüksəlməsində İ.Həbbəyli kimi tədqiqatçıların yolunu və xidmətlərini də məhz bu yöndə araşdırmağa doğru gedirik. Məhz G.pənah da bu yolla gedir.

İ.Həbibbəylinin yaradıcılığına ümumi nəzərdə onun çox dəyərli tədqiqatlarını yada salır: *"1984-cü ildə çap etdirdiyi "Romantik lirikanın imkanları" adlı monoqrafiyasında ilk dəfə olaraq həmin dövrdə poeziyamızda yaranan sonet, marş, himn, şərqi, türkü və sair poetik formaların poetikasını, romantik lirikada üslub məsələsini, Azərbaycan ədəbiyyatşünaslığı elmində ilk dəfə Hüseyn Cavidin romantik-fəlsəfi, Məhəmməd Hadinin romantik-publisist, Abbas Səhhətin lirik-romantik, Abdulla Şaiqin romantik-realist üslubunun elmi-nəzəri təhlilini vermişdir. Alimlər onun bu tədqiqatlarını Azərbaycan ədəbiyyatşünaslığında, ümumiyyətlə, poetik formalar janrlar və fərdi üslublar haqqında ciddi elmi-nəzəri tədqiqatlardan biri kimi mühüm əhəmiyyətə malik olduğunu bildirir. Məmməd Cəfər Cəfərov yazır: "Mənim fikrimcə, İsa Həbibbəylinin "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" adlı dissertasiyası bizim filologiya elminə yenilik gətirən və romantik lirika haqqında təəssürat yaradan orijinal bir tədqiqat əsəridir. Orijinallığı bir də o cəhətdəndir ki, burada lirikanın daha çox poetikasından, üslublarından və janr xüsusiyyətlərindən danışılır... Daim axtarışda olmaq İsa Həbibbəylinin özünə məxsus xarakteridir. Onun XX əsrin əvvəllərində Naxçıvan ədəbi mühiti barədəki axtarışları və tapıntıları məni heyrətləndirdi. Mən heç inanmazdım ki, Naxçıvanın ədəbi-mədəni mühiti bu qədər zəngin olmuşdur. İsa Həbibbəyli mirzəcəlilşünas alim kimi də özünü təsdiq etmişdir".* Əlbəttə, burada M.Cəfərin yazdıqlarının günümüzdə də aktual olduğunu etiraf etməliyik. G.Pənah M.Cəfərdən gətirdiyi sitatı o qədər dəqiq və yerində işlətmişdir ki, tədqiqatçının xarakterini, onun zəhmətkeş obrazını və intellektini bu qeydlərdə bütün aydınlığı ilə görmək mümkündür. İndi İ.Həbibbəylinin yaradıcılıq yolu onun öz əsərlərinin təkcə adları ilə də gözlərimizin önündə canlanır: *"Akademik İsa Həbibbəyli yüzlərlə məqalənin, 50-dən çox kitabın müəllifidir. "Cəlil Məmmədquluzadə" (1987), "Zamanın dühası" (1993), "Seçkin Azərbaycan yazarı Cəlil Məmmədquluzadə" (1994), Akademik İsa Həbibbəyli, Biblioqrafiya. Bakı, Azərbaycan Milli Kitabxanası, 2018, 5.16. Yenə orada, s.134. "Romantik lirikanın imkanları", "Ədəbi yüksəliş", "Ədəbiyyat nəzəriyyəsi", "Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının əsas tarixləri", "Mirzə Ələkbər Sabirin həyatı və yaradıcılığının əsas tarixləri", "Cəlil Məmmədquluzadə və ədəbi mühiti", "XX əsr Azərbaycan yazıçıları", "Məmməd Araz (Məmməd İnfil oğlu İbrahimov)", "Ustad Məhəmmədhüseyn Şəhriyar", "Ədəbi-tarixi yaddaş və müasirlik", "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr", "Nuhçıxandan Naxçıvana", "Ədəbi şəxsiyyət və zaman", "Duzdağ mozaikası", "Ədəbiyyatda Heydər Əliyev obrazı: Tarixi gerçəklikdən ideala" və s. Kitabların müəllifidir".* Akademik İ.Həbibbəylinin zəhmət ünvanıdır bu əsərlər. Bir anlığa düşünürəm ki, bu qədər titanik tədqiqatın, zəhmətin mənzərəsini yeni nəsil oxuculara çatdırmaq missiyasını öz üzərinə götürmüş Gülxani Pənah kimi tədqiqatçılar olmasaydı, varislik əlaqələri də qırılar, başqa sözlə dəyərlərin zamanın küləklərinə sovrulması baş verərdi.

Gülxani Pənahın *"Fundamental elmi baxış və konseptual yanaşma"* tədqiqatının bütün məziyyətlərini ötəri yanaşma ilə araya gətirmək olmaz. Əsəri ardıcıl və diqqətlə oxumaqla həm tədqiqatçını, həm də tədqiqatçının tədqiqata cəlb etdiyi obrazı qədərincə oxucu düşüncəsinə, müasir ədəbi müstəviyə gətirmək olar.

# AKADEMİK İSA HƏBİBBƏYLİNİN ELMİ-ƏDƏBİ İRSİ

## *filologiya elmləri doktoru Gülxani Pənahın «Fundamental elmi baxış və konseptual yanaşma»sında*

*qiqi və araşdırılması, yazıçının şəxsiyyəti, mühiti, həyatı ilə əsərlərinin paralel təhlili çox mühümdür və elmin əsas vəzifəsidir. Bu mənada İsa müəllimin Mirzə Cəlillə bağlı araşdırmalarına böyük dəyər verir və onun "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyasını ayrıca qeyd etmək istəyirəm. Həmçinin onun "Görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə" kitabının müxtəlif dillərə çevrilməsi də mənə görə böyük yazıçının dünyada tanıdılması baxımından çox vacibdir. Onu da bilirəm ki, İsa müəllim əsl Mirzə Cəlil təəssübkeşi kimi onun əsərlərinin də müxtəlif dillərə çevrilməsinin təşəbbüskarıdır. Və elə bu faktın özü vətənpərvərliyin, millətinə, xalqına münasibətin, sevginin ən gözəl təzahürüdür».* Sitat oxucuya çox görünə bilər. Amma Anarın bu qeydləri bəsirət gözü bağlanmış insanlar üçün yardımçı ola bilər. Elə ona görə də fikri kəsmədim, qırmadım. Bəlkə, vicdanı yatmışların bir balaca oyanmaq istəyi oldu. Nə deyim. Hər halda, anlamaq dərdinin mahiyyətinə burada işıq tutulur. İ.Həbibbəyli, C.Məmmədquluzadə xətti yada salınır... bir sözlə, hər kəsin millətə xidmətinin ən sadə yolu sözə vicdanlı yanaşmasından ibarət olduğu Anarın qeydlərinin məntiqi nəticəsi kimi üzə çıxır. Hər halda bu qeydlər Anar müəllimin İ.Həbibbəyliyə uzun ömür arzulaması ilə bitir. Özünün dediyi kimi, daha çox, daha böyük xeyirxah işləri görmək üçün daha çox yaşamaq lazımdır.

Ön söz bizə təlqin edir ki, G.Pənahın möhtəşəm əsərinə qəlbimizdən gələn söz sevgisi ilə yanaşaq. Əkstəqdirdə söz sevgisi olmadan nə isə yazmaq, nəyə isə münasibət bildirmək bizim üçün çətin olardı. Axı qarşıda böyük zəhmət, böyük zəhmətin, yüksək intellektin bəhrəsi olan zəngin faktlar və mənalandırmalar məntiqi ilə köklənmiş əsər dayanır.

G.Pənah «Giriş»də C.Məmmədquluzadədən belə bir epiqraf gətirir: «Dünyada hər bir kəs üçün sözdən böyüyk yadigar yoxdur, zira ki, mal-mülk tələf olub gedir, amma söz qalır». Allah sənə rəhmət eləsin Mirzə Cəlil, nə qədər sərrat, nə qədər ay-




**21.05.2025**